**“Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti Qaydası”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR
KABİNETİNİN QƏRARI

“Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti Qaydası” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.
3. “Dövlət reabilitasiya müəssisələri haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin 1998-ci il 5 may tarixli 106 nömrəli Qərarı ləğv edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov**

Bakı şəhəri,_____2019-cu il
№____

Azəbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il ________tarixli ___ nömrəli qərarı ilə təsdiq edilmişdir

**Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti Qaydası**

## 1.Ümumi müddəalar

1.1. Bu Qaydalar "Əlilliyi olan şəxslərin hüquqları" haqqında Azərbaycan Respublikası Qanununun 10.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və dövlət reabilitasiya müəssisələrinin (bundan sonra- Reabilitasiya müəssisəsi) təşkili və fəaliyyəti qaydasını müəyyən edir.

1.2 Reabilitasiya müəssisələri əlilliyi olan şəxslərin tibbi, psixoloji, pedaqoji, idman, sosial-iqtisadi və digər tədbirlər sistemi vasitəsilə reabilitasiyasının aparılması üçün nəzərdə tutulan müəssisələrdir.

1.3. Reabilitasiya müəssisəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, reabilitasiya müəssisəsini yaradan orqanın əmr, qərarlarını və digər normativ hüquqi aktları, həmçinin bu Qaydanı rəhbər tutur.

1.4. Reabilitasiya müəssisəsi qeyri-kommersiya hüquqi şəxsdir, müvafiq xəzinə hesabına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, ştampa və digər rekvizitlərə malikdir.

1.5. Reabilitasiya müəssisəsi, reabilitasiya tədbirlərinin kompleks şəkildə aparılması üçün, sanitar-gigiyenik, yanğından mühafizə, təhlükəsizlik texnikası və bütün kommunal şəraiti olan binada yerləşdirilməlidir.

1.6.Reabilitasiya müəssisəsinə əlilliyi olan şəxslərin qəbulu, yerləşdirilməsi, onlara qulluqla bağlı prosedurlar, reabilitasiya xidmətlərinin forması, növləri və şərtlərinin seçilməsi fərdi reabilitasiya proqramına uyğun aparılır

1.7. Reabilitasiya müəssisəsi tərəfindən tibbi ləvazimatlar, inventar, dərman pereparatlarının eləcə də reabilitasiya kursunun sonunda əldə olunmuş nəticələrin uçotuhəyata keçirilir.

1.8. Əlilliyi olan şəxslərin sosial xidmət müəssisələrindən yerləşdirilməsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı ilə tənzimlənir.

## 2. Reabilitasiya müəssisəsinin məqsədi, vəzifələri və funksiyaları

2.1 Reabilitasiya müəssisəsinin əsas məqsədi əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı yolu ilə cəmiyyətin həyatında srəbəst iştirakına və sosial inteqrasiyasına şərait yaradılmasını təmin etməkdir.

2.2. Reabilitasiya müəssisəsinin əsas vəzifələri aşağıdakılardır:

2.2.1. Fərdi Reabilitasiya Proqramına əsasən əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji reabilitasiyasının və sosial bacarıqlarının inkişafını müəyyən etmək və həyata keçirmək;

2.2.2. əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı fiziki və hüquqi şəxslərə metodiki məsləhət vermək.

2.3. Reabilitasiya müəssisəsinin funksiyaları aşağıdakılardır:

2.3.1. əlilliyi olan şəxsin reabilitasiya potensialını müəyyən etmək;

2.3.2. Fərdi Reabilitasiya Proqramına uyğun olaraq əlilliyi olan şəxsin reabilitasiya və abilitasiya potensialının reallaşdırılması üzrə tədbirləri həyata keçirmək.

## 3. Reabilitasiya müəssisəsinin idarəetmə strukturu

3.1. Reabilitasiya müəssisəsi Azərbaycan Respublikası qanunvericiliyinə və reablitasiya müəssisəsinin nizamnaməsinə uyğun olaraq idarə olunur.

3.2. Reabilitasiya müəssisəsinə, reabilitasiya müəssisəsini yaradan orqanının rəhbəri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

3.3. Reabilitasiya müəssisəsinin direktoru ali ixtisas təhsilinə və reablitasiya sahəsində üç ildən az olmayan iş stajına malik olmalıdır.

3.4. Reabilitasiya müəssisəsinin direktoru:

3.4.1. reabilitasiya müəssisəsinin işini təşkil edir və onun fəaliyyəti üçün məsuliyyət daşıyır;

3.4.2. öz səlahiyyətləri daxilində reabilitasiya müəssisəsi üzrə əmrlər verir, əmək qanunvericiliyinə uyğun olaraq reabilitasiya müəssisəsinə işçilərin işə qəbul və azad edilməsi ilə bağlı təsisçi qarşısında təkliflə çıxış edir;

3.4.3. reabilitasiya müəssisəsini təmsil edir, reabilitasiya müəssisəsinin adından təsisçi tərəfindən müəyyən edilmiş həddə qədər olan müqavilələr bağlayır, müəyyən olunmuş həddən yuxarı məbləğdə olan müqavilələrin bağlanması ilə bağlı təsisçı qarşısında təkliflə çıxış edir, reabilitasiya müəssisəsinin əmlak və vəsaitlərini qanunvericilikdə müəyyən edilmiş qaydada idarə edir;

3.4.4 reabilitasiya müəssisəsinin ştat cədvəlini və strukturunu, işçilərin vəzifə təlimatlarını və xərclər smetasını təsdiq edilməsi üçün təsisçiyə təqdim edir;

3.4.5. işçilərdən əmək müqaviləsi ilə müəyyən edilmiş şərtlərin, öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb edir;

3.4.6. reabilitasiya müəssisəsinin işçi heyətinin peşəkarlıq səviyyəsinin və ixtisaslarının artırılması sahəsində tədbirlər həyata keçirir;

3.4.7. reabilitasiya müəssisəsində reabilitasiya keçən şəxsləri qəbul edir, onların müraciətlərini araşdırmaqla, müvafiq tədbirlər görülməsini təmin edir;

3.4.8. Qeydiyyat və hesabat işini, onların düzgün tərtib edilməsini və müvafiq orqanlara verilməsini təmin edir;

3.4.9. Maliyyə vəsaitləri üzrə sərəncam verir, onların düzgün xərclənilməsini və saxlanılmasını təmin edir;

3.4.10. Reabilitasiya müəssisəsində yanğından mühafizə, əməyin mühafizəsi, sanitariya-gigiyena norma və qaydalarına riayət olunmasını təmin edir.

## 4. Reabilitasiya müəssisəsinin strukturu

4.1. Fəaliyyət istiqamətindən asılı olaraq reabilitasiya müəssisəsinin strukturuna aşağıdakı şöbələr, bölmələr və kabinetlər daxil ola bilər:

4.1.1. Qeydiyyat və qəbul şöbəsi:

4.1.1.1. qeydiyyat və ilkin qiymətləndirmə;

4.1.1.2. Fərdi Reabilitasiya Proqramının icrası;

4.1.1.3. informasiya və məsləhət.

4.1.2. Sosial-reablitasiya şöbəsi:

4.1.2.1. sosial-məişət uyğunlaşma bölməsi;

4.1.2.2.müstəqil həyat fəaliyyətinin qiymətləndirilməsi kabineti;

4.1.2..3. uyğunlaşma tədrisi sinifləri.

4.1.3. texniki reablitasiya vasitələrindən istifadə edilməsi qaydalarının öyrənilməsi kabinetləri:

4.1.3.1. texniki hərəkət vasitələri kabineti;

4.1.3.2. tiflotexnika , surdotexnika kabineti;

4.1.3.3. özünəxidmət vasitələri kabineti;

4.1.3.4. avtotrenajor, yeriş trenajorları və avtonom hərəkət vasitələri kabineti.

4.1.4. sosial-mühit oriyentasiyası bölməsi:

4.1.4.1. sosial-mühit diaqnostikası və sosial-psixoloji testləşdirmə kabineti;

4.1.4.2. ailə problemləri kabineti;

4.1.4.3. sosial-mühit oriyentasiyası tədrisi və müstəqil yaşamaq vərdişlərinin öyrədilməsi kabineti;

4.1.4.4. passiv nitq öyrətmə kabineti.

4.1.5. Peşə reablitasiya şöbəsi:

4.1.5.1. peşə reablitasiya bölməs;:

4.1.5.2. peşə yönümü kabineti;

4.1.5.3. əlilliyi olan şəxslərin əməyin gigiyenası kabineti;

4.1.6. tədris-tərbiyə kompleksi:

4.1.6.1 tədris auditoriyaları və laboratoriyaları;

4.1.6.2. tədris istehsalat emalatxanaları;

4.1.6.3. idman və bədən tərbiyəsi kabinetləri;

4.1.6.4. tədris kitabxanası.

4.1.7. Tibbi reabilitasiya şöbəsi:

4.1.7.1. bərpa müalicəsi bölməsi;

4.1.7.2. fiziki üsullarla reabilitasiya kabinetləri (elektroterapiya, elektrostimulyasiya, lazer terapiyası, baroterapiya və s.);

4.1.7.3. mexaniki usullarla reabilitasiya kabinetləri (mexanoterapiya, knezoterapiya, müalicəvi masaj);

4.1.7.4. refleksoterapiya kabineti;

4.1.7.5. fitoterapiya kabineti;

4.1.7.6. əmək terapiyası kabineti;

4.1.7.7. su və balneoterapiya (hovuz,müalicəvi-sağlamlaşdırıcı və qalvanik vannalar, müalicəvi duşlar, sauna,palçıq müalicəsi) kabinetləri;

4.1.7.8. psixoterapiya kabineti;

4.1.7.9. loqopediya kabineti;

4.1.7.10. müalicəvi bədən tərbiyəsi kabineti.

4.1.8. rekonstruktiv cərrahiyyə bölməsi;

4.1.9. protezləşdirmə və ortezləşdirmə bölməsi;

4.1.10. Texniki reabilitasiya vasitələrinin hazırlanması üçün təcrübə-konstruktor emalatxanası;

4.1.11. Funksional diaqnostika bölməsi (reabilitasiya potensialının müəyyən edilməsi üçün):

4.1.11.1. elektrokardioloji diaqnostika kabineti;

4.1.11.2. neyrofizioloji diaqnostika kabineti;

4.1.11.3. hərəkət sisteminin fizioloji diaqnostika kabineti;

4.1.11.4. xarici tənəffüs funksiyasının tədqiqi kabineti;

4.1.11.5. klinik-biokimyəvi laboratoriya;

4.1.11.6. rentgen bölməsi.

4.1.12. Mədəni-istirahət kompleksi:

4.1.12.1. kitabxana və oxu zalı;

4.1.12.2. kinozal;

4.1.12.3. oyun otaqları;

4.1.12.4. kafe.

**5. Reabilitasiya müəssisəsinin kadrlarla təmin olunması və əməyin ödənilməsi**

Reabilitasiya müəssisəsinin bölmələrinin ştatı fərdi qaydada konkret şərait, işin həcminə və ayrılmış maliyyə vasitələrinə uyğun olaraq müəyyən edilir.

**6. Reabilitasiya müəssisəsində əmək münasibətləri**

Reabilitasiya müəssisəsində işçilərlə işəgötürən arasında əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

**7. Reabilitasiya müəssisəsinin maliyyə-təsərrüfat fəaliyyəti**

7.1.Reabilitasiya müəssisənin maliyyələşdirilməsi dövlət büdcəsindən ayırmalar və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən daxilolmalar hesabına həyata keçirilir.

7.2. Reabilitasiya müəssisənin saxlanılması üçün tələb olunan xərclər dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində təsisçi üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilir.

7.3. Büdcədənkənar vəsaitlər üzrə fəaliyyət Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 502 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.

7.4. Reabilitasiya müəssisəsinin direktoru:

7.4.1. hər rüb üzrə rübdən sonra gələn ayın 10-na kimi təsisçiyə maliyyə hesabatı və müəssisəyə qəbul edilən şəxslərin statistikası barədə məlumat verir;

7.4.2. sənədlərin təhlükəsiz saxlanılmasını və qeydiyyatını təmin edir.

7.5. Reabilitasiya müəssisəsinin sahibkarlıq fəaliyyəti:

7.5.1. reabilitasiya müəssisəsi öz nizamnaməsində nəzərdə tutulan qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər;

7.5.2. reabilitasiya müəssisəsinin sahibkarlıq fəaliyyəti öz spesifik fəaliyyəti nəticəsində əldə etdiyi mənəvi və maddi dəyərlərin (ideya və təkiflər,əşya və s.) realizasiya edilməsindən ibarətdir;

7.6. Reabilitasiya müəssisəsi fiziki və hüquqi şəxslərə reablitasiya proqramından əlavə, pullu (xüsusi reablitasiya proqramlarına uyğun olaraq) reabilitasiya xidmətləri göstərmək hüququna malikdir. Əlavə pullu reabilitasiya xidmətinin qiyməti təsisçi ilə razılaşdırılmaqla reabilitasiya müəssisəsinin direktoru tərəfindən müəyyənləşdirilir.

**8. Reabilitasiya müəssisəsinin işçilərinin və reabilitasiya müəssisəsində reabilitasiyaya kursu keçən əlillliyi olan şəxslərin hüquqları və vəzifələri**

8.1. Reabilitasiya müəssisəsinin işçilərinin aşağıdakı hüquqları vardır:

8.1.1. öz peşə fəaliyyətləri ilə əlaqədar müvafiq texniki vasitələr və metodiki təlimatlarla təmin olunmaq;

8.1.2. reabilitasiya müəssisəsinin fəaliyyətinə aid məsələlərinin müzakirəsində və həllində bilavasitə iştirak etmək;

8.1.3. öz, şərəf və ləyaqətini qorumaq;

8.1.4. reabilitasiya prosesinin yüksək keyfiyyətini təmin edən, reabilitasiya metod və vasitələrini sərbəst seçmək;

8.1.5. reabilitasiya müəssisəsinin bütün bölmələrinin xidmətlərindən istifadə etmək;

8.1.6.Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallardan başqa əmək müqaviləsi əsasında əmək haqqı ödənilən digər işləri və vəzifələri yerinə yetirmək;

8.2. Reabilitasiya müəssisəsinin işçilərinin aşağıdakı vəzifələri vardır:

8.2.1.Reabilitasiya müəssisəsinin nizamnaməsinə və daxili nizam-intizam qaydalarına əməl etmək;

8.2.2. peşə etika normalarına riayət etmək;

8.2.3. vəzifə funksiyalarını keyfiyyətlə yerinə yetirmək;

8.2.4. mərkəzdə reabilitasiya olunanların hüquqlarının qorunmasına təminat verən və reablitasiya proqramlarının uğurla yerinə yetirilməsinə kömək edən lazımi peşə səviyyəsini təmin etmək;

8.2.5. əlilliyi olan şəxsin şəxsiyyətinə hörmətlə yanaşmaq, fiziki və mənəvi təzyiq tətbiq etməmək.

8.3. Əlilliyi olan şəxslərin reablitasiya müəssisəsində reablitasiya olunmaları onların və ya onların qanuni nümayəndələrinin razılığı əsasında aparılır.

8.4. Reabilitasiya müəssisəsində reabilitasiya kursu keçməyə razılıq vermiş əlilliyi olan şəxs reabilitasiyasının təşkil edilməsi və keçirilməsi üçün zəruri məlumatları düzgün və tam bildirməyə, eləcə də proqramda nəzərdə tutulan reabilitasiya və müəssisə daxili intizam rejiminə riayət etməyə borcludur.

## 9. Əlilliyi olan şəxslərin reabilitasiya müəssisəsinə qəbul edilməsi, onların saxlanılması və reabilitasiya müəssisəsindən buraxılması qaydaları

9.1. Əlilliyi olan şəxslərin reablitasiya müəssisəsinə qəbulu, tibbi-sosial ekspert komissiyaları tərəfindən verilən göndərişlər əsasında həyata keçirilir.

9.2. Reabilitasiya müəssisəsinə əlilliyi olan şəxslərin qəbul edilməsinə əks göstərişlər aşağıdakılardır:

9.2.1.xəstəliyin xüsusi stasionar müalicəsi tələb edən kəskinləşmə və yarımkəskin mərhələsi;

9.2.2.stasionarda müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meylli ruhi xəstəliklər;

9.2.3.fəal fazada bəd xassəli şişlər;

9.2.4. müxtəlif mənşəli kaxeksiyalar;

9.2.5. geniş trofik və yataq yaraları;

9.2.6. irinli-nekrotik xəstəliklər;

9.2.7. yoluxucu və zöhrəvi xəstəliklər.

9.3. Reabilitasiya müəssisəsində olduğu müddətdə əlilliyi olan şəxsdə onun orada qalmasına əks göstəriş yarandıqda, eləcə də reabilitasiya müəssisəsinin daxili nizam-intizam qaydaları onun tərəfindən dəfələrlə pozulduqda reabilitasiya müəssisəsi işçilərinin təqdimatı əsasında direktorun qərarı ilə əlilliyi olan şəxs reabilitasiya müəssisəsindən xaric edilir.

9.4. Bu Qaydaların 9.2-ci maddəsində qeyd olunan əks göstərişləri olan Əlilliyi olan şəxsin reablitasiya müəssisəsində qalmasına yol verilmir və həmin şəxs müvafiq tibb müəssisəsinə göndərilir.

## 10. Reabilitasiya müəssisəsinin ləğv edilməsi

Reabilitasiya müəssisəsinin ləğvi və yenidən təşkili ilə bağlı məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi uyğun olaraq həyata keçirilir.